*Peşə təhsili və insan kapitalı. Cild 9, №3, 2026, s.96-99*

# PEŞƏ TƏHSİLİNDƏ YENİ İXTİSASLARIN AÇILMASI VƏ TƏHSİL PROQRAMLARININ HAZIRLANMASINI ƏHATƏ EDƏN VAHİD ÇƏRÇİVƏNİN TƏRTİBİ MƏSƏLƏLƏRİ



**Rəsul Əsgərov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi-Pedaqoji Tədqiqatlar Mərkəzinin böyük elmi məsləhətçisi, Əməkdar müəllim*
*e-mail: r.esgerov@arti.edu.az*
*https://doi.org/10.30546/2706-7858.2026.09.3.396*

**UOT:** 377

**Xülasə.** *Məqalədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2 may 2024-cü il tarixli, KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları" təhlil edilir, xüsusilə də peşə təhsili sistemində yeni ixtisasların açılması və təhsil proqramlarının hazırlanması sahəsində vahid çərçivənin formalaşdırılması məsələləri araşdırılır. Həmçinin mövcud qaydaların üstün və zəif tərəfləri qiymətləndirilir, əmək bazarının tələblərinə uyğun çevik və keyfiyyətli peşə təhsili proqramlarının hazırlanması istiqamətində təkliflər irəli sürülür.*

**Açar sözlər:** *peşə təhsili, yeni ixtisaslar, təhsil proqramları, kurikulum, əmək bazarı, keyfiyyət təminatı, sənaye 4.0 və 5.0 texnologiyaları.*
**Keywords:** *vocational education, new specialties, educational programs, curriculum, labor market, quality assurance, Industry 4.0 and 5.0 technologies.*
**Ключевые слова:** *профессиональное образование, новые специальности, образовательные программы, учебный план, рынок труда, обеспечение качества, технологии Индустрии 4.0 и 5.0.*

Müasir dövrdə iqtisadiyyatın rəqəmsallaşdırılması, sənaye 4.0 (ağıllı və əlaqəli fabriklər) və 5.0 (insan mərkəzli, dayanıqlı və əməkdaşlıqəsaslı ağıllı fabriklər) texnologiyalarının tətbiqi, yaşıl iqtisadiyyat və innovativ fəaliyyət sahələrinin genişləndirilməsi təhsil sisteminin, xüsusilə də peşə təhsilinin qarşısında yeni vəzifələr qoyur. Əmək bazarında meydana çıxan yeni peşələr və ixtisaslar təhsil proqramlarının mütəmadi yenilənməsini və yeni ixtisasların yaradılmasını zəruri edir. Bu baxımdan respublikamızda yeni təhsil proqramlarının hazırlanması ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi mühüm əhəmiyyət daşıyır.

"Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları" ali, orta ixtisas və peşə təhsili səviyyələrində yeni proqramların yaradılması prosesini tənzimləyən mühüm sənəd hesab olunur. Qaydalar yeni ixtisasların təsnifata əlavə

olunması, mövcud ixtisasların ilk dəfə tədrisinə başlanılması, proqram məzmununun yenilənməsi və ixtisas adlarının dəyişdirilməsi mexanizmlərini müəyyən edir.

**Mövcud təhsil proqramlarının (ixtisasların) açılması qaydalarının mahiyyəti**

Qaydalara əsasən yeni təhsil proqramlarının (ixtisasların) açılması, əsasən aşağıdakı halları əhatə edir:

*– ixtisasların təsnifatına yeni ixtisasın əlavə edilməsi;*

*– təhsil müəssisəsində ilk dəfə yeni ixtisas üzrə tədrisə başlanılması;*

*– proqramın məzmununun yenilənməsi;*

*– ixtisasın adının dəyişdirilməsi.*

Sənəddə qeyd olunur ki, yeni proqramlar ölkənin inkişaf prioritetlərinə, əmək bazarının tələblərinə və rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması məqsədlərinə uyğun olmalıdır. Eyni zamanda proqramlar tələbələrdə innovativ düşüncə, informasiya-kommunikasiya texnologiyalarından istifadə və çevik peşə bacarıqları formalaşdırmalıdır. Bu yanaşma beynəlxalq təcrübədə qəbul olunmuş nəticəyönümlü təhsil modelinə uyğun hesab edilə bilər.

**Qaydaların müsbət cəhətləri**

1. Əmək bazarına uyğunlaşma mexanizminin yaradılması

Qaydaların əsas üstünlüklərindən biri yeni proqramların əmək bazarının ehtiyacları əsasında formalaşdırılmasını tələb etməsidir. Bu yanaşma peşə təhsilində məzunların məşğulluq imkanlarının artırılmasına xidmət edir. Müasir iqtisadiyyatda yaşıl enerji, kibertəhlükəsizlik, süni intellekt, robototexnika və rəqəmsal xidmətlər kimi sahələr üzrə yeni peşələrə ehtiyac yaranır.

2. Təhsil proqramlarının çevik yenilənməsi

Mövcud qaydalar, əsasən proqram məzmununun dəyişdirilməsinə imkan yaradır. Bu da sürətlə dəyişən texnologiyalar fonunda peşə təhsilinin aktuallığını qorumağa kömək edir.

3. Keyfiyyət təminatına diqqət

Sənəddə təhsil proqramlarının keyfiyyət göstəricilərinə uyğun hazırlanması, tələbələrin müasir bacarıqlar əldə etməsi və rəqabətqabiliyyətli mütəxəssis kimi formalaşdırılması əsas prinsiplərdən biri kimi müəyyən edilmişdir.

4. Dövlət prioritetləri ilə əlaqələndirilmə

Mövcud qaydalarda proqramların ölkənin sosial-iqtisadi inkişaf strategiyalarına uyğunlaşdırılması tələb olunur. Bu yanaşma insan kapitalının inkişafı ilə iqtisadi inkişaf arasında əlaqənin gücləndirilməsinə xidmət edir.

**Mövcud qaydaların çatışmayan cəhətlər**

1. Peşə təhsili üzrə xüsusi metodologiyanın kifayət qədər detallı olmaması

Qaydalar ali, orta ixtisas və peşə təhsilini ümumi şəkildə əhatə edir. Lakin peşə təhsilinin özünəməxsus xüsusiyyətləri nəzərə alınaraq ayrıca metodoloji mexanizmlər daha ətraflı müəyyən edilməmişdir. Məsələn:

*– ixtisasın peşə və kvalifikasiya standartları ilə proqramların əlaqələndirilməsi;*

*– işəgötürənlərin iştirak səviyyəsi;*

*– dual təhsil mexanizmləri;*

*– istehsalat təcrübəsinin həcmi və s. kimi məsələlər daha konkret tənzimlənə bilər.*

2. Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının rolunun məhdudluğu

Bir çox inkişaf etmiş ölkələrdə yeni peşə proqramları sahə üzrə sektor şuralarının və işəgötürən birliklərin rəyi əsasında təsdiqlənir. Mövcud qaydalarda bu mexanizmin institusional forması tam şəkildə müəyyən edilməmişdir.

3. "Kompetensiyalara əsaslanan" yanaşmanın zəif ifadə olunması

Müasir peşə təhsilində əsas diqqət təlim nəticələrinə və kompetensiyalara yönəlir. Qaydalar bu istiqaməti nəzərdə tutsa da, proqramların hazırlanması üçün konkret kompetensiya çərçivələri ayrıca təqdim edilmir.

4. Gələcək peşələrin proqnozlaşdırılması mexanizminin olmaması

Yeni ixtisasların açılması daha çox mövcud tələbat əsasında qiymətləndirilir. Halbuki əmək bazarının 5-10 illik perspektivdə proqnozlaşdırılması və gələcəyin peşələrinin müəyyənləşdirilməsi üçün ayrıca mexanizmlər tələb olunur.

5. Peşə təhsilində vahid çərçivənin hazırlanmasının zəruriliyi

Peşə təhsilində yeni ixtisasların açılması və təhsil proqramlarının hazırlanması üçün vahid çərçivənin yaradılması aşağıdakı məqsədlərə xidmət edə bilər:

*– bütün peşə təhsili müəssisələrində vahid yanaşmanın formalaşdırılması;*

*– əmək bazarı ilə əlaqələrin gücləndirilməsi;*

*– proqramların keyfiyyətinin yüksəldilməsi;*

*– beynəlxalq standartlara uyğunluğun təmin edilməsi;*

*– məzunların məşğulluq səviyyəsinin artırılması.*

Belə çərçivə ixtisasların açılmasından başlayaraq təhsil proqramlarının hazırlanması, tətbiqi, monitorinq və qiymətləndirməyə qədər bütün mərhələləri əhatə etməlidir.

**Vahid çərçivənin əsas komponentlər:**

**Əmək bazarının təhlili**

Yeni ixtisasın açılması qərarı aşağıdakı məlumatlara əsaslanmalıdır:

*– əmək bazarı araşdırılmalı;*

*– işəgötürən sorğuları keçirilməli;*

*– məşğulluq statistikası araşdırılmalı;*

*– regional inkişaf planlarına istinad edilməli.*

**Peşə və kvalifikasiya standartlarının tətbiqi**

Hər yeni təhsil proqramı təsdiq edilmiş müvafiq peşə və kvalifikasiya standartlarına uyğun hazırlanmalıdır. Bu, təhsil nəticələri ilə iş yerlərinin tələbləri arasında uyğunluğu təmin edir.

**Kompetensiyaəsaslı kurikulum**

Təhsil proqramlarının hazırlanması zamanı biliklər, bacarıqlar, səriştələr, rəqəmsal kompetensiyalar, əsas, ümumi və spesifik bacarıqlar və onlara uyğun modul başlıqları aydın şəkildə müəyyən edilməlidir.

**İşəgötürənlərin iştirakı**

Sahə müəssisələrinin proqram hazırlanması prosesində iştirakı məcburi element kimi nəzərdə tutulmalıdır.

**Keyfiyyət təminatı sistemi**

Yeni proqramların tətbiqindən sonra onların effektivliyi aşağıdakı göstəricilər üzrə qiymətləndirilməlidir:

*– məzun məşğulluğu;*

*– işəgötürən məmnunluğu;*

*– tələbə nailiyyətləri;*

*– beynəlxalq müqayisə göstəriciləri.*

Hazırlanması təklif olunan “Peşə təhsilində yeni ixtisasların açılması və təhsil proqramlarının hazırlanması Qaydaları”nda aşağıdakı bölmələrin verilməsi məqsədəuyğundur:

- *Ümumi müddəalar*
- *Əsas anlayışlar*
- *Yeni ixtisaslara ehtiyacın müəyyən edilməsi*
- *Əmək bazarının təhlili və əsaslandırma*
- *Yeni ixtisasların açılması proseduru*
- *İşəgötürən və sektor nümayəndələrinin iştirakı*
- *Təhsil proqramlarının hazırlanması metodologiyası*
- *Modul və kredit strukturunun formalaşdırılması*
- *İstehsalat təlimi və təcrübəsinin təşkili*
- *Təhsil proqramlarının ekspertizası və təsdiqi*
- *Pilot tətbiq mexanizmi*
- *Monitorinq və keyfiyyət təminatı*
- *Təhsil proqramlarının yenilənməsi və ləğvi*
- *Rəqəmsal və yaşıl bacarıqların inteqrasiyası*

Bu yanaşma mövcud sənədi sadəcə “ixtisas açılması qaydaları”ndan çıxarıb peşə təhsilində əmək bazarının tələblərinə uyğun yeni ixtisasların açılması və kompetensiyalara əsaslanan təhsil proqramlarının hazırlanmasının idarə olunması üzrə kompleks normativ çərçivəyə çevirə bilər.

**Nəticə.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2 may 2024-cü il tarixli, KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları” təhsil sisteminin modernləşdirilməsi istiqamətində mühüm addımdır. Qaydalar yeni ixtisasların yaradılması üçün hüquqi baza formalaşdırır, proqramların əmək bazarının tələblərinə uyğunlaşdırılmasına və keyfiyyət təminatına şərait yaradır. Bununla yanaşı, peşə təhsilinin spesifik xüsusiyyətləri nəzərə alınaraq yeni ixtisasların açılması və təhsil proqramlarının hazırlanması üçün ayrıca vahid çərçivənin hazırlanmasına ehtiyac vardır. Belə çərçivə əmək bazarının təhlili, peşə standartları, kompetensiyaəsaslı kurikulumlar, işəgötürənlərin iştirakı və keyfiyyət təminatı mexanizmlərini özündə birləşdirməlidir. Nəticə etibarilə, vahid çərçivənin tətbiqi peşə təhsilinin çevikliyini, keyfiyyətini və əmək bazarına uyğunluğunu artıraraq ölkənin insan kapitalının inkişafına mühüm töhfə verə bilər.

*Azərbaycanın peşə təhsili sistemində 60 il ərzində fəaliyyət göstərən, bu sahənin inkişafına böyük əmək sərf edən Rəsul Əsgərov jurnalımızın fəal müəlliflərindən və redaksiya heyətində səmərəli fəaliyyəti ilə seçilən ziyalılarımızdandır. Onun 60 illik əmək yolunun mühüm cəhətlərindən də biri odur ki, bu fəaliyyət yalnız inzibati vəzifələrlə məhdudlaşmır. O, peşə təhsili sahəsində 60 illik fəaliyyət yolu ərzində bir çox beynəlxalq layihələrdə və respublika səviyyəli tədbirlərdə iştirak etməklə yanaşı, peşə təhsilinin inkişafı ilə bağlı ictimai müzakirələrdə də fəal olmuş, televiziya proqramlarında çıxış etmiş və peşə təhsili məsələləri ilə bağlı ictimaiyyətin məlumatlandırılmasına öz töhfəsini vermişdir. R.Əsgərovun əməyinə dövlət və təhsil ictimaiyyəti tərəfindən də yüksək qiymət verilmişdir. "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı, "Əməkdar müəllim", "Qabaqcıl təhsil işçisi", "Ali kateqoriyalı metodist, "Əmək veteranı" fəxri adlar və təltifləri uzunmüddətli və səmərəli fəaliyyətinin göstəriciləridir.*

*2021-ci ildən Azərbaycan Respublikası Təhsil İnstitutunda Elmi-Pedaqoji Tədqiqatlar Mərkəzinin böyük elmi məsləhətçisi kimi fəaliyyət göstərən R.Əsgərov bu gün də uzun illər ərzində topladığı zəngin təcrübəsini peşə təhsilinin inkişafına yönəldir.*

*Jurnalın kollektivi olaraq biz də Rəsul müəllimi 60 illik peşə fəaliyyətində göstərdiyi səmərəli xidmətlərinə görə təbrik edir, bundan sonrakı elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayırıq.*

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2 may 2024-cü il tarixli, KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları".

2. "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunları.

3. Ahmad S. et al. Education 5.0: Requirements, Enabling Technologies and Future Directions. 2023.

4. Türk A.M., Bilge A. Bilgisayar Mühendisliği Eğitiminde Teknoloji Eğilimlerinin Takip Edilmesi. 2018.

**R.Asgarov**

## Issues regarding the development of a unified framework for introducing new specialties and preparing educational programs in vocational education

**Abstract**

The article analyzes the "Rules for Introducing New Educational Programs (Specialties)," approved by Decision No. KQ-05 of the Board of the Ministry of Science and Education of the Republic of Azerbaijan dated May 2, 2024, specifically examining the establishment of a unified framework for introducing new specialties and developing educational programs within the vocational education system. Furthermore, the strengths and weaknesses of the current regulations are evaluated, and proposals are put forward for developing flexible, high-quality vocational education programs that align with labor market demands.

**Р.Асгаров**

## Вопросы разработки единой системы внедрения новых специальностей

**Аннотация**

В статье анализируются «Правила внедрения новых образовательных программ (специальностей)», утвержденные решением Коллегии Министерства науки и образования Азербайджанской Республики № KQ-05 от 2 мая 2024 года; особое внимание уделяется созданию единого механизма внедрения новых специальностей и разработки образовательных программ в системе профессионального образования. Кроме того, оцениваются сильные и слабые стороны действующих нормативных положений и выдвигаются предложения по разработке гибких и качественных программ профессионального образования, отвечающих потребностям рынка труда.